# Misirdə Şah İsmayıl Xətainin sağlığında köçürülmüş "Divan"ı aşkar edilib

**Şərq ölkələrinin kitabxana və muzeylərində Azərbaycan alim və ədiblərinin əsərlərindən ibarət zəngin əlyazma kolleksiyaları mühafizə olunur. Bu baxımdan, Qahirədə yerləşən Misir Milli Kitabxanası və Arxivlər Mərkəzi xüsusi əhəmiyyət daşıyır.**



Bu barədə AZƏRTAC-a açıqlamasında Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir şöbəsinin müdiri, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın sədri Elnur Mustafayev bildirib. Onun sözlərinə görə, Misir Milli Kitabxanasında qorunan yüzlərlə Azərbaycan əlyazması arasında görkəmli dövlət xadimi və şair Şah İsmayıl Xətainin indiyədək elmə məlum olmayan bir "Divan" nüsxəsini tədqiqat zamanı aşkarlayıb.

O qeyd edib ki, Xətai irsinə aid əlyazmalar XVII-XVIII əsrlərdən etibarən tədqiq olunmağa başlanıb. XIX əsrədək Yaxın Şərq müəllifləri bu əlyazmalar haqqında əsasən səthi məlumatlarla kifayətləniblər. Sonrakı dövrdə Avropa və Rusiya şərqşünasları Xətai yaradıcılığının tədqiqində mühüm işlər görüblər. Xətainin əlyazmaları hazırda Bakı, Sankt-Peterburq, Paris, London, Berlin, Vatikan, Daşkənd, İstanbul, Tehran və Təbriz kimi mərkəzlərdə qorunur. Lakin indiyədək şairin sağlığında köçürülmüş "Divan"ının mövcudluğu elmə dəqiq məlum deyildi.

Elnur Mustafayev bildirib ki, Misirdə aşkarlanan "Divan"ın Xətainin sağlığında yazıya alındığını güman etməyə əsas verən ciddi əlamətlər mövcuddur: "Əlyazma dəri üzlüklə cildlənib, nəstəliq xətti ilə, zəngin təhzib və ornamentlərlə tərtib olunub. 39 vərəqdən ibarət nüsxədə Şah İsmayıl Xətaiyə aid 146 şeir yer alır. Əsərin katibi məşhur xəttat Sultan Əli Məşhədidir.

Azərbaycan.- 2026.- 7 yanvar (№ 2).- S.11.